## *TARİXİN TƏDRİSİ METODİKASI*

UOT 37.01

***Aynur Mübariz qızı Süleymanova***
*Bakı şəhəri Suraxanı rayonu 318 №-li məktəbin tarix müəllimi*

# TARİX DƏRSLƏRİNDƏ FƏAL TƏLİMİN ROLU VƏ ƏHƏMİYYƏTİ

***Айнур Мубариз гызы Сулейманова***
*учитель истории школы № 318 Сураханского района гор. Баку*

# РОЛЬ И ЗНАЧИМОСТЬ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ НА УРОКАХ ИСТОРИИ

***Aynur Mubariz Suleymanova***
*history teacher in school № 318 of the Surakhani region of Baku*

# THE ROLE AND İMPORTANCE OF İNTERACTİVE LEARNİNG İN HİSTORY LESSONS

**Xülasə:** Fəal təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təffəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Əgər şagird öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir. Şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı" mövqeyidir; o, problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesinin iştirakçısı olaraq, bu prosesdə tədqiqatçı kimi çıxış edirlər və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

***Açar sözlər:*** *tarix, fəal təlim, kurikulum, müəllim, şagird, əməkdaşlıq, qrup işi, Venn diaqramı, müzakirə, beyin həmləsi.*

**Резюме:** В статье отмечается, что одним из основных условий активного обучения является вовлечение учащихся в процесс обучения. Включение активного учебного метода в учебный процесс поможет устранить пассивность учеников, развить необходимое мышление, творчество и качество обучения.

***Ключевые слова:*** *история, активное обучение, учебная программа, учитель, ученик, сотрудничество, групповая работа, диаграмма Венна, обсуждение, мозговая атака.*

**Summary:** The article notes, that one of the main conditions of active learning is the active involvement of students in the learning process.

Inclusion of the active learning method into the teaching process will help to eliminate the passivity of the pupils, to develop the necessary thinking, creativity and the quality of the training.

***Keywords:*** *history, activelearning, curriculum, teacher, student, collaboration, groupwork, Venndiagram, discussion, brainfunction.*

Həm milli maraqlar və dövlətçilik baxımından, həm də milli təfəkkürün formalaşması və vətəndaş tərbiyəsində tarix fənninin rolu əvəzsizdir. Müstəqil dövlət quruculuğu yollarında inamla irəlilədiyimiz XXI əsrdə dünənimizi daha yaxşı, daha dəqiq, əhatəli öyrənməliyik. Elmi-texniki inqilab, dünya ölkələri ilə geniş əlaqələr Azərbaycan məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsini, fəal təlimin, kurikulumun tətbiq edilməsini zərurətə çevirmişdir. İntellektual potensialın inkişaf etdirilməsi və onun qorunub saxlanılması hər bir dövlətin öz qarşısında qoyduğu əsas məqsəddir.

Artıq bir çox müasir müəllimlər kimi mən də dərslərimi kurikulumun bir qolu olan fəal təlim üsulları ilə qururam. Fəal interaktiv təlim təlim prosesinin elə təşkil olunmasıdır ki, bu təlimdə biliklər hazır formada şagirdlərə təqdim olunmur. Şagirdlər biliyi tədqiqat yolu ilə əldə edirlər. Müəllim biliyi ötürən rolundan imtina edir və bələdçi vəzifəsini (fasilitator) daşıyır. İnteraktiv sözünün mənasında da kiminlə, nə ilə dialoqa, qarşılıqlı əməkdaşlığa girmək dayanır. Fəal təlim anlayışı isə sinfin, auditoriyanın passiv, seyrçi olmamasına işarədir. Bu təlim prosesində sinif (auditoriya) qrup və cütlər formasında problemin həlli yollarına dair axtarışa çıxarılır, qruplar əldə olunmuş nəticələri işçi vərəqlərində qeyd edir, sonra onun təqdimatını həyata keçirirlər. Təqdimatlar bitdikdən sonra bu tədqiqat nəticələri arasında rabitə yaradılır, məlumatlar sistemləşdirilir və ümumi bir şəkildə təsnif olunur. Bundan sonra həmin yekunlarla tədqiqatın başlanğıcında şagirdlərin (auditoriyanın) irəli sürdüyü ilkin fərziyyələrlə müqayisələr aparılır. Şagirdlər hansıların üst-üstə düşdüyünü, nələrin isə yeni olduğunu müşahidə edir və ümumi nəticəyə gəlirlər. Göründüyü kimi, belə dərslərdə əvvəlcə öyrəniləcək mövzuya çıxaracaq problem qoyularaq motivasiya (1) yaradlılır.

Motivasiya təhriketmə deməkdir. Yəni şagirdlərin (auditoriyanın) təlim-dərketmə marağını problemin həllinə doğru fəal, canlı şəkildə istiqamətləndirilir. Onun digər vəzifəsi isə tədqiqat sualını ortaya qoymağa şərait yaratmaqdır. Məhz həmin tədqiqat sualı ilkin fərziyyələr irəli sürməyə və tədqiqat işlərini təşkil etməyə imkan yaratmış olur. Tədqqiqat sualı tədqiqat işinin (2) həyata keçirilməsini tələb edir. Tədqiqat işlərinin nəticələri işçi vərəqlərində qeyd olunur və təqdimatlar (3) həyata keçirilir. Sonra təqdim olunan məlumatlar təşkil və təsnif olunur (4). Alınan qənaətlər ilkin fərziyyələrlə müqayisə olunaraq nəticələr (5) çıxarılır. Sonra isə alınmış nəticələrin tətbiqi (6) barədə işlər yerinə yetirilir.

Fəal təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Əgər şagird öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir. Şagirdin mövqeyi – “kəşf edən”, “tədqiqatçı” mövqeyidir; o, problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesinin iştirakçısı olaraq, bu prosesdə tədqiqatçı kimi çıxış edirlər və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Müəllimin mövqeyi – fasilitator ("bələdçi", "aparıcı") mövqeyidir, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

Fəal təlimdə istifadə olunan bir çox təlim üsulları vardır. Lakin bunlardan istifadə edərkən fənnin xüsusiyyətlərinə, mövzuya və məqsədə uyğunluğu nəzərə alınmalıdır. Beyin həmləsi, söz assosiasiyaları, müzakirə, mühazirə, debatlar, karusel, ziqzaq, Venn diaqramı, BİBÖ cədvəli, İNSERT, klaster, anlayışların çıxarılması və digər fəal təlim üsulları dərsin gündəlik planlaşdırılmasında mövzu və məqsədə uyğun istifadə edilməlidir.

Qeyd etdiklərimizi bir dərs nümunəsi üzərində göstərək.

**3.1.1.** Qədim dövlətlərin yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətlərini təsvir edir.

**4.1.1.** Tarixi şəxsiyyətləri müəyyənləşdirir.

**Mövzu:** “İRAN”.

**Təlim nəticələri:**

1. İran Əhəməni dövlətinin yaranmasını, onun siyasi quruluşunu, sosial-iqtisadi münasibətlərini təsvir edir.
2. İran Əhməni dövlətinin hökmdarlarını müəyyənləşdirir.

**İnteqrasiya:** Coğrafiya (1.1.1.)

**İş forması:** kollektivlə və qruplarla iş.

**Üsullar:** anlayışın çıxarılması, VENN diaqramı, klaster.

**Resurslar:** Dərslik, xəritə, internet, iş vərəqəsi, marker.

**Dərsin mərhələləri:**

**Motivasiya**




**Tədqiqat sualı:**İran Əhəmənilər dövlətinin tarixdəki rolu və yeri nədən ibarətdir?

**Tədqiqatın aparılması:**

**I qrup:** Venn diaqramından istifadə etməklə Əhəməni imperiyasını Midya dövləti ilə müqayisə edin. Oxşar və fərqli cəhətləri göstərin.

**II qrup:** Əhəməni imperiyasının işğal etdiyi ərazilər hansılardır? (illəri göstərməklə)




**III qrup:** Venn diaqramından istifadə etməklə Əhəməni hökmdarı I Daranı Midiya hökmdarı Kiaksarla müqayisə edin. Oxşar və fərqli cəhətləri göstərin.

**IV qrup: Əhəməni imperiyasının siyası quruluşununsxemini təsvir edin.**

**Məlumat mübadiləsi:** Vaxt bitdikdən sonra qrup nümayəndələri işlərini təqdim edirlər.

Hər bir qrup tədqiqat işlərini bitirdikdən sonra sosial meyarlarla (əməkdaşlıq, tapşırığı tam yerinə yetirmə, təqdimat, dinləmə, əlavə sual-cavab və s.) qiymətləndirilir.

**Məlumat müzakirəsi:** Qruplar dinləndikdən sonra kollektiv müzakirə aparılır və müzakirə sualları verilir.

1. I Dara hansı sahələrdə islahatlar keçirmişdir?

2. II Kir hansı ərazilərə yürüşlər etmişdir ?

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər:

1. İran Əhəmənilər dövlətinin siyasi, iqtisadi xüsusiyyətlərini tanıyır.

2. Həyata keçirilən işğallar nəticəsində Əhəməni imperiyasının tərkibinə qatılan əraziləri müəyyən edir.

3. Əhəməni hökmdarı I Daranın həyata keçirdiyi islahatları qiymətləndirir.

**Yaradıcı tətbiqetmə:** İran Əhəməni dövlətinin tarixinə aid mühüm hadisələrin xronologiyasını tərtib edin.

**Formativ qiymətləndirmə:**

Şagirdlər 4 səviyyədə, "təsviretmə" və "müəyyənləşdirmə" meyarlarına əsasən qiymətləndirilir.

**Problemin aktuallığı.** Fəal (interaqtiv) təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığının formalaşması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq.

**Problemin elmi yeniliyi.** Müəllim çalışmalıdır ki, passiv şagirdlər də fəallaşsınlar. Fəal təlimin əsas şərtlərindən biri dərsin maraqlı qurulması, şagirdlərin dərs prosesinə fəal cəlb olunmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Fəal təlimin tətbiq edilməsi müəllimləri şagirdə yönəlmiş və təhsil islahatlarının prinsiplərinə əsaslanan məqsəd və vəzifələri yerinə yetirməyə, müasir tələblərə cavab verən təlimin məzmununu yaratmağa obyektiv, çevik qiymətləndirmə sistemi tətbiq etməyə, demokratik sosial-psixoloji mühit yaratmağa sövq edir.

**Ədəbiyyat:**

1. “Təhsil Haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ümumi tarix fənnindən yeni təlim proqramı (kurikulum). Bakı, 2012.

**E-mail**: aynur.mubariz@hotmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **A. Bəkirova,**
*ped.ü.fəls.dok*. **Ə. Gərayev**
**Redaksiyaya daxil olub:** 16.10.2018